YENİ TƏFƏKKÜR
Yüksəlişə doğru yol!
2 oktyabr / 2020

**Oxuduğumuz elmi mənbələrdən bilirik ki, Günəş bir Allah sirridir; insan onu nə əxz, nə də idrak edə bilməz...**

**Yaşadığımız həyat məsamələri bəlli edir ki, İnsan da (elə) bir Allah sirridir; min illərdir özü haqqında dərin (elmi) mükalimələr yürüdür, bir növ, (böyük israrla) özünü tədqiq edir, lakin (hələ də) hansı məcrada və nəyə qadir olduğunu bilmir...**

**...Gözlərimiz dərinliklər girdabında qara hücrələrə aydınlıq verməк iqtidarında olmadığı üçün biz təbii ki, fizioloji baxışla günəşi (formaca) günəş, insanı (surətcə) insan kimi görürük. Bu, qəbahət də sayılmır; çünki insanın Allahın sirrini faş etmək şansı (qabiliyyəti) yoxdur...**

# Şair, taleyi cızmaq, qaralamaq, ümidi boğmaq üçün doğulmur

Bu mənada, yazımızın baş obrazı, milli ruhu, yaddaş çırpıntısı, ecazkar siması - bu işıqlı cahana göz açdığı gündən həqiqət adlı gerçəyin təlatümündə insanlıq göydələni ucaldan və hər mərtəbədə yüzlərlə Allah bəndəsi üçün əsrarəngiz həyat sevdası cücərdən, ədəbi cəbhədə müsəlləh əsgər kimi farağat dayanan Musayev Arif Qaraoğlan oğlu - Arif Musanın ilk dəfə kövrək məftunluqla ifadə etdiyi «ana» sözünün ən yüksək qatında Allah həqiqəti təcəssüm edib... Kim bilir, bəlkə də o, bu kəlməni zamanın iti sürət yanğısı ilə cilalayıb deyə, adamlar onun titrək dodaqlarının arasından çıxan yorğun səsin hansı çəkidə olduğunu dəqiq hesaba ala bilməyiblər. Kimsə inkar etməz ki, Həqiqət onun ən ali Vicdan Məhkəməsidir... O, həyatda da belədir, sənətdə də...

(Bu yazıda) məqsədimiz fövqəl tərbiyəli və intizamlı, vətəndaş amallı parlaq istedadlı şair Arif Musanın həyat hekayəsini danışıb oxucunu mürgü otağına göndərmək deyil, çalışırıq ki, İnsan, Şəxsiyyət və Şair obrazını şəxsi qabiliyyət və ülfətlə yaratmış, bu çevik prosesə bir həyat işığı səpmiş Arif Musanın batini mənasını, vüqar və qürur duyğusunu, zəka qatını və idrak mərtəbəsini insancasına xarakterizə edək, oxucuya bir insanın neçə atmosferdən, neçə zaman vektorundan və neçə fəzadan ibarət olduğunu anladaq. Bu istiqamətdə bizə onun 2020-ci il tarixdə "Maarif" nəşriyyatında çapdan çıxmış "Könül duyğularım" kitabı köməkçidir. Bəri başdan deyək ki, adıçəkilən kitab bir xəritədir; həyat, tale, (bir sözlə) vücudu əhatə edən hər şey orada özünü qabarıq göstərir. Lakin hamı o «xəritə»də əks olunan proyeksiyaları (cizgi-xətləri) aydın görə bilmir - yəni kim ki, (insan olaraq) özündə mənalanan Allah-İnsan vəhdətini mükəmməl şəkldə salır, onun fəlsəfəsini idrak edir. Bu anlamda, Arif Musa yeni kitabında bütün cəhətləri aydın, ədəbi ekvatorları səlis, poetik meridianları fərqli çıxışda təqdim edib.

"Könül duyğularım" kitabını oxuduqca əmin oluruq ki, insan bir kütlədən tökülsə də, mənaca çoxxassəlidir. Polifonik komponentlər onun həyat miqyaslarıdır. Böyüyən (artan) olduğu üçün o, idrak qatına yüksəlir və şüura varid olur, canlı aləmin ən uca varlığı hesab edilir. Məhz Arif Musa vaxtın döyüşkən anları ilə qabaq-qənşər durub az-az yaşa dolduğu çağlardan Allahı Külli-İxtiyar Sahibi kimi əxz edib, batini hissi ədəbi arqument kimi səciyyələndirib.

Kitabdan bir-iki nümunəyə diqqət yetirək:

*Bütün nəğmələrdən əzizdir mənə,*
*Beşikdə duyduğum ana nəğməsi.*

***

*Bəs niyə ağlayırsan,*
*Nəyə gərək göz yaşı?!*
*Axı hələ başlamıb*
*Burda ölüm savaşı.*

*Mənə həvəs ver, ana,*
*Sil gözünün yaşını.*
*Mən Vətən əsgəriyəm,*
*Uca saxla başını!*

"Ana", "Vətən" mövzusu Arif Musa yaradıcılığının əsas ədəbi predmetləridir. Şair həyat meyarı seçdiyi bu oblastları hətta adi danışığında belə aşkar büruzə verir.

Arif Musanın kitabda məhəbbət və sosial-ictimai məna kəsb edən şeirləri də az deyil:

***

*Biz ki, belə deyildik,*
*Yad oluruq elə bil.*
*Kənar gəzsək də, yenə*
*Üz-üzə gələn kimi*
*Od oluruq elə bil.*

*Qurtaraq bu gileyli,*
*İkibaşlı sözləri.*
*Həsrətin yollarında*
*Saraltmayaq gözləri.*

***



*Söylə sözlərini küləyə sən də,*
*Gətirsin mənimçün, yolda qalmasın.*
*Sözləri gətirən külək olsa da,*
*Bizim bu sevgimiz külək olmasın.*

***

*Qəlbində başqasın yaşatdın deyə,*
*Titrəyən dodaqlar mənim olmadı.*
*Vüsala dönməyən görüşlərimiz*
*Həsrətin saçını niyə yolmadı?!*

***

*Ürək daşdan deyil, dəmirdən deyil,*
*Taleyin sağalmaz yarası çoxdur.*
*Bax, belə dərdləri olan ürəyin*
*Ağlamaqdan başqa çarası yoxdur.*

***

*Xəzan olan arzum qalır dünyada,*
*Qəlbimdəki sözüm qalır dünyada,*
*Oğlum qalır, qızım qalır dünyada,*
*Mən gedirəm, yoxluğuma ağlama.*

Bu misralarda, əslində, mənəvi dəyərlər, insan amili, sosial rifah və yüksəlişə zəmin yaradan dinamik gerçəklik zərgər dəqiqliyi ilə cilalanıb. Elə bu nümunələrdən bəlli olur ki, Arif Musanın obrazlarının yaşamaq eşqi ilə həyat sevdası arasında rəngli-rəngsiz çevrələr var. Elə bu əhatədə var-gəl edə-edə düşünürük ki, şair, taleyi cızmaq, qaralamaq, ümidi boğmaq üçün doğulmur, kədəri gecənin işığıyla rəngləmək üçün dünyaya göz açır.

İllər əvvəl ömür və poeziya yoluna üzüyola, ərköyün, küskün uşaq kimi çıxmış, yeniyetmə çağlarından əlləri göy üzündən asılı, özü ilə taleyi arasındakı rəngləri məsum axıntıya məruz qoyan və özünü boyalı, boyasız, gülüş və göz yaşı (bir-birinə) qarışmış obraz kimi təqdim edən Arif Musa gəncliyini işıqlı duyğularla səciyyələndirib, hazırda da müdrik çağını Allah sevgisi ilə süsləyir, öz həyat sevdalarını deyil, özündən aralıda olan mütləq mövcudluğun əzabını ifadə edir. Bunu istedadlı şairin "Dənizə açdığım sirr" yazısı da aşkar ifadə edir: "*...Qəribədir, dənizdə nə ləpə vardı, nə də dalğa, elə bil dəniz donmuşdu. Pıçıltımı bir mən eşidirdim, bir də dəniz: - Eşit məni, dəniz.. Yəqin ki, hər şeyi olduğu kimi, saralıb yarımçıq qalmış arzularımı ilk görüşdən sənə deyə bilməyəcəyəm...*"

Buradan göründüyü kimi, Arif Musa öz fərqli şair görkəmi ilə hər acının içində bir ürək yanğısı olduğunu, hər yanğıda da bir insan taleyinin ütüldüyünü bəlli edir. Buna görə onun xeyir-duasını alanların, göstərdiyi yolla gedənlərin ömür qayığı heç vaxt lövbər vurmayıb.

Beləliklə, yazımızda əxlaq mücəssəməsi, ali sərvət kimi əxz etdiyimiz Arif Musa günümüzün (orijinal) insan reallığıdır. Onun hələ illər əvvəl başladığı fikir, söz müharibəsi bəşərin sağalmaz yaralarına məlhəm səpmək üçündür. Məhz «Könül duyğularım» kitabı da elə bunu ehtiva edir.

Əminik ki, dünya on illər sonra öz parlaq səmasında Arif Musa adlı bir Günəş görəcək...

**Hikmət Məlikzadə,**
**Prezident mükafatçısı**